**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**SƏİDƏ RZA qızı SƏLİM-ZADƏ**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA XALÇA SƏNƏTİNİN İNKİŞAFI VƏ ONUN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**İxtisas:** 6218.01 – "Dekorativ-tətbiqi sənət"

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyasının

## A V T O R E F E R A T I

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Təsviri sənətin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Kübra Muxtar qızı Əliyeva**
sənətşünaslıq üzrə elmlər doktoru,
professor, Əməkdar incəsənət xadimi

**Rəsmi opponentlər:** **Arif Möhübəli oğlu Əzizov**
Əməkdar İncəsənət xadimi, professor

**Xədicə Vəli qızı Əsədova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **AMEA-nın Memarlıq və İncəsənət İnstitutu**

Müdafiə 30 aprel 2018-ci il saat 14.00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı, Heydər Əliyev prospekti, 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat 30 mart 2018-ci ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Çox qədim keçmişə və zəngin bədii ənənələrə malik olan xalçaçılıq sənətimizin bu gün haqlı olaraq daşıdığı dünyəvi şöhrətin tarixçəsi əsrlərlə ölçülür. Bunu şərtləndirən başlıca səbəb xalqımızın çoxqatlı rəng duyumunu, incə zövqünü, dünyaya dini-fəlsəfi baxışını və yüksək icra sənətkarlığını özündə hifz edən xalçaların məna-məzmun tutumuna görə çox unikal bədii-mənəvi nümunə olmasıdır. Qədim dünya tarixçilərinin (Ksenofont, Herodot və s.) Qafqaz, o cümlədən də Azərbaycan xalçalarının bədii-estetik tutumuna verdikləri yüksək dəyər, orta əsr Avropa və XIX əsr Rusiya rəssamlarının bu xalçaları əsərlərinin məna-məzmun daşıyıcısına çevirmələri də bu sənət növünün ruhi-fəlsəfi tutumuna inamın ifadəsi olmuşdur.

Xalçaçılığın qədim zamanlardan müasir dövrümüzə kimi davam edən çoxcəhətli evolyusiyası göstərir ki, bu sənət növünü sadə keçə və həsir formasından "Şeyx Səfi" səviyyəsinə qədər inkişaf etdirən azərbaycanlı sənətkarlar onu bu gün də yeni bədii-texniki töhfələrlə zənginlədirmək iqtidarındadırlar. Azərbaycan xalçaçılığının ənənə və müasirlik üzərində qurulan təşəkkülünün nəticəsidir ki, bu nümunələr dünən də, bu gün də dünyanın ən məşhur muzey və nüfuzlu şəxsi kolleksiyalarının ən qiymətli mənəvi dəyər daşıyıcısı olaraq qalmaqdadırlar.

Milli xalçaçılığımızın Azərbaycanın bolşeviklər tərəfindən işğalına qədərki dövrdə fərdi toxuculuq emalatxanalarında gerçəkləşən inkişafı, kommunist rejiminin mövcudluğu illərində əsasən mərkəzləşdirilmiş və ideologiyaya bağlı formada həyata keçmişdir. Dekorativ-tətbiqi sənət sahəsində təhsil almaq imkanı əldə etmiş xalçaçı-rəssamların fəaliyyəti də bu dövrdə fərdi şəkildə baş tutmuşdur. Sovet dönəmində həm də xalq rəssamı L.Kərimovun rəhbərliyi altında Azərbaycan xalçaçılığının elmi surətdə öyrənilməsinə başlanmış, keçirilən müxtəlif simpoziumlarda ənənəyə tapınan Azərbaycan xalçaçılığının əldə olunmuş uğurlarının təbliği həyata keçirilmişdir. Müstəqillik dövründə paytaxtda və bölgələrdə xalçaçılıqla məşğul olan özəl müəssisələrlə yanaşı, ayrı-ayrı dekorativ-tətbiqi sənət ustaları Azərbaycan xalçaçılığını klassik bədii ənənələrə tapınmaqla inkişaf etdirmiş, yeni-yeni dəyərli bədii nümunələr yaratmağa nail olmuşlar. Eldar Mikayılzadə, Məmmədhüseyn Hüseynov, Salehə Kamilzadə,

Aydın Rəcəbov, Minaxanım Hüseynova, Afaq Kərimova, Fazil Abbasquluzadə, Gülmurad Bəbirov, Cəfər Müciri, Zahidə Haşımova, Münəvvər Hacıyeva və digərlərinin müstəqillik illərinə təsadüf edən yaradıcılığı Azərbaycan xalçaçılığının yeni bədii-estetik məziyyətlərlə zənginləşdiyini sərgiləyir.

Lakin bu müəlliflərin bəzisi istisna olmaqla, digərlərinin ərsəyə gətirdikləri xalça nümunələri elmi əsaslara öyrənilməmişdir. Elə xalçaçılığımızın müstəqillik mərhələsini səciyyələndirəcək bədii-estetik və bədii-texniki xüsusiyyətlər barəsində, bu dövrdə əldə olunanların bütünlükdə Azərbaycan dekorativ-tətbiqi sənətində yeri barəsində də tədqiqat işi aparılmamışdır. Bütün bu vurğulananlar Azərbaycan xalçaçılığının müstəqillik dövründəki inkişafı (1991-2014) və onun bədii xüsusiyyətləri barəsində ətraflı tədqiqatın aparılmasının aktuallığını şərtləndirir.

Bu aktuallıq həm də qədim milli mənəvi dəyərlərimizdən sayılan xalçaçılıq sənətinin qürur daşıyıcılığını gələcək nəsillərə ötürmək gücündən də qaynaqlanır.

**Problemin tədqiq olunma dərəcəsi.** XX əsrin ortalarına aid Azərbaycan xalçaları haqqında məlumat verən nəşrlər arasında S.Tulyayevin tədqiqat işi, N.İ. Sobolevin redaktorluğu ilə çap olunmuş “Xalça istehsalı” toplusundakı məqalələr xüsusilə təqdirəlayiqdir. M.D. İsayevin tədqiqatını xüsusilə qeyd etmək lazımdır. Müəllif burada Azərbaycanda xalçaçılığın inkişaf tarixini, təbii-iqlim, təsərrüfat və sosial amillər kontekstində nəzərdən keçirir. Azərbaycan xalçalarının Avropa və Amerika ölkələrində şöhrət qazanmasını onların yüksək bədii məziyyətləri ilə izah edir. XIX əsrin sonları – XX əsrin əvvəllərinə aid Azərbaycan xalçalarının əksəriyyəti, şübhəsiz ki, Azərbaycan əhalisi tərəfindən toxunulmuşdur. Bunu həmin dövrün əksər tədqiqatçıları açıqca bildirir. F.V. Qogelin əsərində də Azərbaycan xalçaları haqqında maraqlı məlumatlara rast gəlmək mümkündür. O, XVII-XVIII əsrlərə aid “ov” və “heyvan” ornamentli məşhur xalçaların bir qrupunu tədqiq edərək belə qənaətə gəlmişdir ki, bunlar Azərbaycanda istehsal olunmuşdur.

Azərbaycan xalçası artıq uzun illərdir ki, alimlərin hərtərəfli tədqiqat obyektidir. Azərbaycanda xalçaçılıq sənətinin müxtəlif növlərinin, tarixi dövrlərinin, ornament və toxunuş xüsusiyyətlərinin sənətşünaslıq baxımından tədqiq edilməsi bu sahənin həm tarixi, həm də 1990-cı illərə qədərki inkişafı izlənilmişdir.

Göstərilən istiqamətdə xalq sənətinin ən yüksək zirvəsi olan xalça toxuculuğunun elmi tədqiqatı xüsusilə diqqətəlayiqdir. Bu sahədə L.Kərimovun xidmətləri hədsizdir. L.Kərimovun əsərləri sonuncu əlli ildə xalça sənətini tədqiq edən sənətşünaslar üçün ilk mənbə və bir məktəb oldu. Onun üç cildlik "Azərbaycan xalçası" kitabları demək olar ki, Azərbaycan xalça sənətinin nümunəvi sənət əsəridir[1]. Burada L.Kərimov Azərbaycan xalçalarının əlifbası sayılan 1300 xalça element və naxışlarının təsnifatını vermiş, qocaman toxuculardan topladığı zəngin materiallara əsasən onların adlarını qeyd etmiş və həmin elementlərin xalq arasındakı simvolik mənalarını təyin etmiş, Azərbaycan xalçalarının tarixini tədqiq edərək xalça və xalçaçılıq sənətinin terminologiyasını araşdıraraq kiçik bir lüğət vermiş, Azərbaycanın istər xalq və istərsə də rəssamları tərəfindən işlənmiş kompozisiyalar, elementlər və naxışlar haqqında məlumatlar vermişdir. L.Kərimovun tərtib etdiyi cədvəldə hər növ və qrup xalçaların adlarının qrafik sxem içərisində əks etdirmişdir.

Lətif Kərimovun məktəbini keçən Nəcibə Abdullayeva özünün "Azərbaycanın xalça incəsənəti" adlı kitabında[2] XIX əsrin axırı XX əsrin Quba, Bakı, Qazax, Gəncə, Qarabağ, Şirvan və Bakının kənd və şəhərlərində toxunan ornamental xalçalarının bədii xüsusiyyətlərini tədqiq edilmiş, professional rəssamlar tərəfindən toxunmuş ornamental və yeni xalçaların kompozisiya və süjetləri haqqında məlumat verilmiş, əsasən sovet dövrü xalça sənətini, əsasən də Azərbaycan xalça sənətinin inkişaf mərhələlərinə diqqət yetirmişdir.

Röya Tağıyeva, Nəcibə Abdullayeva, Kübra Əliyeva, Anaxanım Əliyeva, Eldar Mikayılzadə kimi tanınmış xalça tədqiqatçıları Lətif Kərimovun sənətini davam etdirirlər. A.Əliyevanın 3 fəsildən ibarət "XIX-XX əsrin əvvəllərində Azərbaycanın xovlu xalçaları" adlı kitabında[3]Azərbaycan xalça sənətinin əsasını təşkil edən qoyunçuluq, qoyunun növləri və onlardan alınan yunların xalçaçılıqda tətbiqi, həmçinin iplərin boyanmasında təbii və süni rənglərin təsnifatı verilmiş, xovlu xalçaların texnologiyası, Azərbaycanın Quba, Bakı, Qarabağ, Qazax, Gəncə və s. xalçaçılıq məntəqələrində toxunan ayrı-ayrı məşhur kompozisiyaların bədii xüsusiyyətini təhlil edilmişdir.

---

[1]Керимов Л. Азербайджанский ковер. Том II. Баку: Гянджлик, 1983. с.236; Керимов Л. Азербайджанский ковер. Том III, Баку: Гянджлик, 1983, 303 с.
[2]Абдуллаева. Н. Ковровое искусство Азербайджана. Баку: Элм, 1971,149 с.
[3]Алиева А. Ворсовые ковры Азербайджана XIX – начала XX века. Баку: Элм, 1987. 142 с.

K.Əliyevanın uzun illərin tədqiqatlarının nəticəsi olan "Azərbaycanın xovsuz xalçaları" kitabında[4] ilk dəfə olaraq Azərbaycanın xovsuz xalçaları tədqiq olunmuşdur. XVII əsrdən XX əsrə qədər toxunmuş xovsuz xalçaların texniki, bədii xüsusiyyətləri haqqında geniş məlumat verilir.

R.Tağıyevanın monumental "Azərbaycan xalçaları" kitabı[5] Azərbaycan, ingilis, fransız və ərəb dillərində çap olunmuşdur. Kitab Azərbaycan xalçaçılığı sahəsində mövcud tədqiqatların ümumiləşdirilməsi və xalqımızın mədəniyyəti tarixində mühüm yer tutan Azərbaycan xalçasının çoxəsrlik inkişafı yolunun izlənilməsi məqsədilə qələmə alınmışdır. Kitabın yazılması ideyası Lətif Kərimov adına Azərbaycan xalçası və xalq tətbiqi sənəti Dövlət muzeyində uzun illər işləməsi ilə bərabər Azərbaycan xalçasının dünyada təbliğ edilməsi məqsədindən irəli gəlmişdir. Bundan əlavə R.Tağıyeva 100-lərlə elmi əsər, 35 monoqrafiya və kitab çap edərək bu milli irsimizin incəliyini araşdıraraq elmi-nəzəri və elmi-ictimai istiqamətdə gələcəyə mühüm irs qoymuşdur[6].

Röya Tağıyevanın iki cildli "Azərbaycan xalçası ensiklopediyası" da təqdirəlayiqdir[7]. Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq ensiklopediya şəklində təqdim olunan bu tədqiqat işində xalçaçılıq sənətinin yaranması və inkişafı, xalçaların növ müxtəlifliyi, onların hazırlanması texnologiyası, naxış və rəmzlərin mənşəyi ilə yanaşı, tarixi əhəmiyyət kəsb edən xalçalar haqqında məlumatlar toplanmışdır. Tədqiqat işində Azərbaycan mədəniyyətinin ilk mərhələsindən və təşəkkül tarixindən başlamış xovsuz və xovlu xalçalar, yüksək istehsal, onların bədii xüsusiyyətləri, kompozisiya zənginliyi, xalqın əsrlər boyu şifrələnmiş naxışlarda yaratdığı özəllikləri və digər simvollar ifadəsi

---

[4]Алиева К.Безворсовые ковры Азербайджана. Баку: Элм, 1999. С. 150.

[5]Tağıyeva R. Azərbaycan xalçası. Baku, Azerbaijan. İstanbul, 1999, 262 s.

[6]Tağıyeva R. Azərbaycan xalçası. Bakı: Elm, Tutu Design, 2007.150 s.; Tağıyeva R.Nizami obrazları xalçalarda. Bakı: İşıq, 1991, 148 s.; Tağıyeva R. Azərbaycan xalçası məişətdə. Bakı: Şeyf Səfi, 2006. 143 s.; Tağıyeva R. İlmə-ilmə toxunan ömür // "Azərbaycan xalçaları". jurnalı. Cild 2, №4, 2012. səh. 80-83; Tağıyeva R. "Azərbaycan Xalçaçılıq Sənəti" YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir". Məruzə. YUNESKO, 19.11.2010-cu il. Keniya; Tağıyeva R. Azərbaycan xalçası. Bakı: Undp, BP Amoco, Baku Art Culture Helpers, 1999.-263 s.; Tağıyeva R. Azərbaycan xalçası dünya mədəniyyəti xəzinəsinə tohfədir // "Mədəni irs xalcalarda" elmi-praktiki konfrans. Bakı, 2002. - 5 s.

[7]Tağıyeva R. Azərbaycan xalçası ensiklopediyası. Bakı: Azərnəşr, 2015. 632 s.

tapmışdır. 400-dən artıq xovsuz xalçaların mənşəyi, kompozisiyası və ornament örnəyi öz əksini tapmışdır.

Uzun illər Azərbaycan Xalça Muzeyində işləyən Röya Tağıyevanın "Azərbaycan xalçası" kitabında[8] əsasən muzeyin və dünyanın bir çox muzeylərinin kolleksiyalarında saxlanılan xalçalarının bədii və texniki xüsusiyyətlərini araşdırılmışdır.

Röya xanımın elmi rəhbərliyi altında X. Əsədovanın apardığı elmi axtarışlar da xalça sənətinin öyrənilməsi sahəsində mühüm əhəmiyyət təşkil edir[9].

Tədqiqata cəlb olunmuş mövzu ilə bağlı xalça sənəti haqqında yazılmış kitablardan maraqlısı və sənətşünaslar üçün mühüm əhəmiyyət kəsb edən biri də R.Əfəndi və K.Əliyevanın birgə müəlliflıklə yazdıqları "Azərbaycanın xalı və xalçaçılıq terminləri lüğətidir"[10]. Bu lüğətin yaranmasında müəlliflərin 30 il ərzində Azərbaycanı qarış-qarış gəzərək qocaman ustalarla təmasda olub və topladıqları materiallar əsas olmuşdur. Kitabda Azərbaycanın həm cənub, həm də şimal hissəsində olan xalçaçılıq mərkəzləri, xalçaların kompozisiyaları, ayrı-ayrı elementlərin adları xalçaçılıqda istifadə edilən texniki proseslərin və alətlərin adları yer tutmuşdur. Eyni zamanda yeri gəldikcə xalça və naxış adlarının etimologiyasının tarixi və onların Orta Asiya Anadolu xalçaları ilə eyni adlara malik olmaları haqqında da mülahizələr daxil edilmişdi.

M.Abdullayevanın "Azərbaycan dilində xalçaçılıq leksikası"[11], T.Əfəndiyevin "Azərbaycan mədəniyyəti və incəsənəti"[12], Z.Əliyevin "Eldar Mikayılzadə. Albom-kataloq"[13], Z.Əliyevin və A.Xəlilovun "Azərbaycan incəsənəti – təsviri sənət, dekorativ-tətbiqi sənət, memarlıq"[14], "Azərbaycan xalçaları" – kataloq[15], S.Aşurbəylinin

---

[8]Tağıyeva R. Azərbaycan xalçası. Baku, Azerbaijan. İstanbul, 1999, 262 s.

[9]Əsədova X. Azərbaycan xalça naxışlarının semantikası və bədii xüsusiyyətləri. sənətşün. üzrə fəls. d-ru a. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2011. s.24.

[10]Əfəndi R. və Əliyeva K. Azərbaycanın xalı və xalçaçılıq terminləri lüğəti. Bakı: Çaşıoğlu, 1998, 252 s.

[11]Abdullayeva M. Azərbaycan dilində xalçaçılıq leksikası. Bakı: Qismət, 1998.- 159 s.

[12]Əfəndiyev T. Azərbaycan mədəniyyəti və incəsənəti. Bakı, 2002.

[13]Əliyev Z. Eldar Mikayılzadə. Albom-kataloq. Bakı: Letterpress. 2013. S.250.

[14]Əliyev Z., Xəlilov A. Azərbaycan incəsənəti – təsviri sənət, dekorativ-tətbiqi sənət, memarlıq. Bakı: Letterpress nəşriyyat evi, 2010.

[15]"Azərbaycan xalçaları" – kataloq. Heydər Əliyev Fondu; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi; L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi. - Bakı, 2010.

“История города Баку”[16], K.Əliyevanın “Тебризская ковровая школа XVI-XVII вв.[17], N.Tağıyevanın “Ковровое искусство Азербайджана в американском искусствоведении”[18]kimi bir çox araşdırma və yazılarda Azərbaycan xalçalarının tarixindən, xalçaları bir-birindən fərqləndirən texniki xüsusiyyətlərindən bəhs edilmiş, regionlar üzrə xalçaçılıq məktəblərinə aid məlumatlar verilmişdir.

Adı çəkilən mənbələrdə Azərbaycanın müxtəlif bölgələrində toxunan xalçalardan, dünya rəssamlarının əsərlərində xalçalarımızın təsvir olunmasından, Azərbaycan xalçalarının yüksək keyfiyyəti, bədii xüsusiyyətləri, onların saxlanma metodları və xarici ölkələrdə istehsalı haqqında, illərdən bəri Azərbaycan xalçalarında istifadə olunan naxış elementlərindən, qədim el sənətini bu gün də yaşadanlar haqqında, Azərbaycan xalçalarının inkişaf tarixindən, dünya bazarlarında xalçalarımızın dəyərindən, xarici rəssamların bir çox əsərlərində zəruri təsvir və ifadə vasitəsi kimi Azərbaycan xalça naxışlarının istifadəsindən, ölkəmizə gəlmiş Avropa səyyahlarının xalçalarımızla bağlı fikirlərindən, Azərbaycan xalqının qədim xalçaçılıq sənətinin təşəkkül tarixindən bəhs edilmişdir.

Lakin Azərbaycan xalçaları haqqında çox sayda yazılmış monoqrafiya, məqalə, elmi-tədqiqat işlərinin olmasına baxmayaraq müstəqillik dövründə fəaliyyət göstərən xalq ustalarının və xalçaçı-rəssamların yaradıcılıqları kifayət qədər öyrənilməmiş, bir çox rəssamın yaradıcılığı isə tamamilə sənətşünas araşdırma və tədqiqatlarından kənarda qalmışdır.

Onu da qeyd etmək lazımdır ki, bizim araşdırmamızdan əvvəl A.Sadıqova bu istiqamətdə tədqiqat işi aparmışdır. Tədqiqatçı-alim XX əsrin II yarısında Azərbaycan xalça sənətinin inkişafını izləyərək dövrün aparıcı xalçaçı rəssamların və xalq sənətkarların yaratdığı xalça nümunələrini tədqiq və təhlil etmişdir[19].

Lakin A.Sadıqovanın tədqiqatı 90-cı illərlə məhdudlaşır və Azərbaycanın müstəqillik dövründəki xalçaçılıq sənətinin durumu haqqında məlumat verilməmişdir. Yəni son 25 ildə istər peşəkar xalçaçı

---

[16]Ашурбейли С. История города Баку: период средневековье. Баку: Азгосиздат, 1992.- 402 с.

[17]Алиева К. Тебризская ковровая школа XVI-XVII вв. // Баку: Элм, 1999 - 194 с.

[18]Тагиева Н. Ковровое искусство Азербайджана в американском искусствоведении /Н.Тагиева; АМЕА. Институт Архитектуры и искусства - Баку, 1997 -С.65-67 - Текст на азерб. и на русском языке.

[19]Садыгова А. Ковровое искусство Азербайджана II половины XX столетия. Баку, 2013.

rəssamların yaradıcılığı, istərsə də xalq ustalarının bu rüb ərzində gördüyü işlər haqqında araşdırılma aparılmamışdı. Sovet dövründə Azərbaycanda Azərxalça İttifaqın nəzdində olan Azərbaycanın ayrı-ayrı rayonlarında təşkil olunmuş 30-a yaxın fabrik və sexlərdə xalçaçı ustalar hazır çeşnilər üzərində işləyirdilərsə, bu gün rayonlarda, kəndlərimizdə özlərinin xüsusi fantaziyalarında istifadə edən xalçaçı ustalar, yeni-yeni kompozisiyalar yaradır, özlərinin yeni rəng qammalarını xalçalara tətbiq edirlər. Peşəkar rəssamlar da bu baxımdan yeni dövrün sosial-iqtisadi inkişafından ruhlanaraq klassik irsimizi daha dərindən öyrənərək onların əsasında bu günə qədər tətbiq olunmamış kompozisiyaları əsasında gözəl xalça nümunələri yaradırlar.

**Tədqiqatın məqsədi və əsas vəzifələri.** Tədqiqatın məqsədini müstəqillik dövründə Azərbaycanda xalça sənətinin əsas inkişaf istiqamətlərini izləmək və bu sənətin bədii xüsusiyyətlərini üzə çıxarmaq təşkil edir.

Qeyd edilən məqsədə çatmaq üçün sadalanan məsələlərin həlli nəzərdə tutulur:

- Xalça sənətinin tarixi inkişafına qısaca nəzər salmaq;
- Müxtəlif xalçaçılıq istehsal mərkəzlərinin fəaliyyəti sahəsində (Quba, Bakı, Füzuli və. s.) istehsal edilmiş xalçaların bədii xarakterik cəhətlərini təhlil etmək;
- Müstəqillik dövründə fəaliyyət göstərmiş xalçaçı-rəssamların yaradıcılığının məhsulu olan xalçaların texniki və bədii xüsusiyyətlərinin təhlil edilməsi;
- Müstəqillik dövründə xalça sənətinin təhsil sistemində tətbiqi;
- Müstəqillik dövründə Azərbaycan xalçalarında tətbiq edilmiş yeni mövzu və süjetlərin ənənə ilə bağlılığı;
- Bölgələr üzrə fəaliyyət göstərən xalçaçılar və onların xalça nümunələrinin toplanaraq araşdırılması;
- Azərbaycanda xalçasının gələcək inkişaf istiqamətlərinin təyin edilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanın aparıcı xalçaçı rəssamların və xalq sənətkarlarının müstəqillik dövründə yaratdıqları xalça nümunələri təşkil edir.

Tədqiqatın predmetini istər xalq ustalarının və istərsə də peşəkar rəssamların yaratdıqları xalçaların bədii-stilistik xüsusiyyətlərini təhlil etmək və onların perspektivlərini təyin etmək təşkil edir. Başqa sözlə, müstəqillik dövründə Azərbaycanda xalça sənətinin inkişafının və onun perspektivlərinin təyin edilməsi, həm xalçaçı ustaların, həm də

rəssamların yaradıcılığındakı fərqli bədii xüsusiyyətlərin cəhətləri işləmə metodlarının müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiyada müqayisəli-tipoloji, tarixi-mədəni və analitik metodların üsullarından istifadə edilmişdir. Tədqiqatın metodoloji əsasını sənətşünaslıq təhlili, müqayisəli təhlil, məntiqi təfəkkür, xalçaçılıq sənəti ilə bağlı materialların sənətşünaslıq kontekstində təfsiri təşkil edir. Dissertasiyada tarixi mənbələrə istinad edilmiş, xalça sənəti tarixinə aid faktlardan yaradıcılıqla istifadə edilmişdir. Müstəqillik dövrünün aparıcı xalçaçı rəssamların bədii üslub xüsusiyyətləri öyrənilmiş, bu xüsusiyyətlərin birlikdə bədii ənənə formalaşdırmasına diqqət yetirilmişdir. Eyni zamanda bir çox rəssamlarla sənət söhbətləri aparılmış, fikirləri dinlənilmiş, onların müasir dövrdə bədii ənənənin inkişafındakı rolu müəyyən edilmişdir.

**Tədqiqatın sərhədləri.** Dissertasiyada 1991-ci ildən başlayaraq 2015-ci ilə qədər olan dövrdə, yəni müstəqillik dövründə Azərbaycan xalça sənətinin inkişafı tədqiq edilir.

Burada nəzərdə tutulmuş dövrü əhatə edən zaman çərçivəsində yaranmış xalçalardakı mövzu və süjet müxtəlifliyi araşdırılmış, ayrı-ayrı rəssamların yaradıcılıqları müəyyənləşdirilmiş, onların müəlliflik etdikləri əsərlər araşdırılaraq təhlil edilmişdi.

Xalçaçı-rəssamların fəaliyyətləri onların yaradıcılıq tarixi və coğrafi əhatə dairəsi ilə bağlı olaraq müstəqillik dövründə Azərbaycan dekorativ incəsənətinə ekskurs fonunda baş verir. Bu da həmin rəssamların üslub tərzini, özünəməxsus fərdi maneralarını və dəsti-xətlərini obyektiv qiymətləndirməyə imkan yaradır.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik dövründə Azərbaycan xalçaçılığını yaşatmaq, onun ənənələrini davam etdirmək, gənc nəslə öyrətmək, xalq çeşniləri əsasında toxumaq, xalçalarımızın beynəlxalq miqyasda təbliğinə nail olmaq, xalçaçılıq tədqiqatının elmi yeniliyini bu istiqamətdə inkişaf etdirməkdən ibarətdir.

1. Müstəqillik dövründə özəl xalça fabriklərində toxunan xovlu və xovsuz xalça nümunələrinin bədii xüsusiyyətləri ilk dəfə təhlilini tapmışdır.

2. Professional xalça rəssamlarının son illərdəki yaradıcılıq təmayülləri, kompozisiya qurulusu qeyd olunmuşdur.

3. Azərbaycanın ayrı-ayrı regionlarında xalçaçı ustalar tərəfindən toxunan yeni kompozisiyalı xalçalar ilk dəfə tədqiq olunmuşdur.

4. Xalça sənətinin təhsil sistemi kimi müxtəlif universitet, kollec, texniki peşə məktəblərində, xalça fabrik və sexlərində öyrədilməsi prosesi ilk dəfə təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, bu gün hazırkı dissertasiya bədii yaradıcılığın xalça sənəti sahəsindəki yeni-yeni əsərlərin tədqiqi və təhlilini özündə əks etdirir. Dissertasiyanın materialları incəsənətin müxtəlif sahələrində çalışan və ya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Rəssamlıq Akademiyasının müvafiq fakültələrində aparılan mühazirələrdə istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "İncəsənətin tarixi və nəzəriyyəsi" kafedrasında müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəaları Azərbaycanda və xaricdə çap olunan 8 məqalədə öz əksini tapmışdır.

**Tədqiqatın həcmi və strukturu.** Dissertasiya giriş, dörd fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 125 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdu.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun müasir sənətşünaslıq elmi üçün aktuallığı, tədqiqatın obyekti, predmeti və problemləri, məqsəd və vəzifələri, tədqiq tarixi və işlənmə dərəcəsi, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Azərbaycan xalça sənətinin təşəkkülü və təkamül yolları"** adlı **I fəslin ilk yarımfəslində** Azərbaycan xalça sənətinin inkişaf mərhələləri izlənilir.

Milli mədəniyyət tarixində tətbiqi sənətin bir qolu olan xalçaçılığın çox qədim tarixi vardır. Müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar yüksək estetik əhəmiyyət kəsb edərək insanların gündəlik həyatında mühüm rol oynamışdır.

Dissertasiyada son illərdə ölkəmizin sürətlə tərəqqiyə nail olması milli dəyərlərin, o cümlədən xalça sənətinin qorunması və inkişafını özündə əks etdirən əsas sahələri və istiqamətləri əksini tapmışdır. Xalçaçılıq sənətinin gələcək nəsillərə çatdırılması yolunda dövlətimizin apardığı milli siyasət, yeni layihələr əsasında yaradılmış Xalça muzeyinin fəaliyyəti özünün səmərəli nəticələrini vermişdir.

Dissertasiyada xalçaçılıq sənətinin müstəqillik dövründə Azərbaycanın ayrı-ayrı rayonlarında yaşayan minlərlə toxucu ustalar tərəfindən yaradılmış xalça və xalça məmulatlarının bugünkü inkişaf səviyyəsini üzə çıxarmaq məqsədilə onların bədii və texniki xüsusiyyətləri izlənmiş, xüsusi təhsil almış xalçaçı-rəssamların yaradıcılığında bir-birindən fərqli kompozisiya və naxış üslubuna malik nadir xalçaların bədii və texniki xüsusiyyətləri təhlil edilmişdir. Həmçinin müstəqillik dövründə xalça sənətinin xalqın ənənəvi sənəti kimi təhsil sistemindəki vəziyyəti araşdırılıb onların müxtəlif universitetlərdəki proqramları nəzərdən keçirilmiş, son 25 ildə elm sahəsindəki səviyyəsi təyin edilmişdir.

Azərbaycan xalçasında özlüyündə formalaşmış və böyük bir tarixi mərhələdən keçərək heç bir zaman əhəmiyyətini itirməyən ənənələrin davamını və müasir inkişaf mərhələsini yaşayır. Bu missiya müasir xalçaçı-rəssamlar tərəfindən davam etdirilir. Eyni zamanda baş vermiş dəyişikliklərin nəticəsində mahiyyət kəsb edən xalçaçılıq sənətinin ənənələrlə yeniliyin sintezində inkişafı nəzərə çarpır.

Bu istiqamətdə xalça sənətinin inkişaf etdirən peşəkar xalça-rəssamlarından Kamil Əliyev, Eldar Mikayılzadə, Məmmədhüseyn Hüseynov, Saleh Kamilzadə, Aydın Rəcəbov, Minaxanım Hüseynova, Gülmurad Bəbirov, Cəfər Mücri, Zahidə Haşımova, Afaq Kərimova, Münəvvər Hacıyeva kimi rəssamlar uğurla davam etdirirlər. Onların tədqiqata cəlb edilmiş xalça əsərləri, eyni zamanda gənc-xalçaçıların bu sənətə yeni nəfəs verən yaradıcılıqları, fərdi yanaşma tərzləri, o cümlədən bölgələr üzrə fəaliyyət göstərən xalçaçıların toxuduqları nümunələr üzərindəki təhlil və araşdırmalar müstəqillik dövründə Azərbaycan xalça sənətinin inkişafı və onun bədii xüsusiyyətlərinin öyrənilməsi və tədqiq olunmasına ciddi zərurətin yaranması qənaətinə gətirir.

Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında qanunda qeyd edilir: “Azərbaycan xalçası Azərbaycan xalqının maddi və mənəvi sərvətidir, intellektual fəaliyyətinin nəticəsi olub, xalqın estetik dünyagörüşü bədii istedadını, özünəməxsusluğunu və mədəni intensivliyini əks etdirir”. Azərbaycan xalçasının göstəricilərinə təsir edən bu fikirlər müstəqillik dövründə xalça sənətinin inkişafı və onun bədii xüsusiyyətlərinin öyrənilməsinin əsasını təşkil edir.

Aparılan araşdırmalar böyük tarixi dövrü əhatə edən Azərbaycan xalça sənətinin inkişaf mərhələləri haqqında kifayət qədər materiallar mövcud olduğunu sübut edir. III-VII əsrlərdə yüksək bədii

xüsusiyyətlərə malik qızıl-gümüş saplardan toxunan nəfis nümunələr hələ o dövrdə Azərbaycan xalçasını dünyada tanıtmışdır.

Son orta əsrlərdə Şəki, Bakı, Quba, Qarabağ, İrəvan, Gəncə, Naxçıvan, Şirvan kiçik xanlıqlarına bölünməsi xalça istehsalının daha geniş əhatədə inkişaf etməsinə səbəb oldu. Bu inkişaf isə sonrakı dövrlərdə bu istiqamətdə özünəməxsus məktəblərin yaranmasına zəmin yaratdı.

Bakı xalçaçlıq məktəbini təmsil edən Görədil, Novxanı, Nardaran, Bülbülə, Fatmayı, Mərdəkan, Qala, Xilə və digər Abşeronun kəndləri; üç hissəyə - dağlıq, dağətəyi və ovalıq hissələrə bölünmüş Quba xalça mərkəzini əhatə edən Qırız, Qonaqkənd, Xaşi, Buduq, Cimi, Afurca, Yerfi, Cek, Salmasöyüd, Əmirxanlı, Əlixanlı, Xəlfələr, Pirəmsan, Bilici, Şahnəzərli, Pirəbədil, Zeyvə, Zöhrami, Sumaqobaq, Çiçi, Qımıl, Pirəbədil, Qırız və digər kəndlər; dağlıq və aran zonaları üzrə iki regionu əhatə edən Qarabağ xalça məktəbinə aid Cəbrayıl, Ağdam, Bərdə, Füzuli; Şirvan xalçaçılıq məktəbini əhatə edən Şamaxı, Mərəzə, Ağsu, Kürdəmir, Qazıməmməd, Göyçay və eləcə də onların ətraf kəndləri; Gəncə qrupunu təmsil edən Gəncə şəhəri və onun ətraf kəndləri; Qazax xalçaçılıq məktəbinə daxil olan Qazax, Gürcüstan ərazisindəki azərbaycanlıların yaşayış əraziləri və XX əsrin sonlarına qədər azərbaycanlıların yaşadığı Ermənistandakı bəzi bölgələr; Təbriz xalçaçılıq məktəbinə aid Təbriz, Ərdəbil, Marağa, Mərənd, Maku, Xoy, Urmiya, Zəncan, Qərəcə, Heris, Sərab, Əhmədabad, Miriş, Əhər, Salmas, Görəvan, Sennə, Qaradağ və başqa xalça məntəqələri üzrə toxunan xalçalar üzərindəki təsvir edilmiş tarixi süjetlər, yazılar, element və naxışlar, süjetlər bu bölgələrdə xalçaçılığın geniş şəkildə inkişaf etdiyini sübut edir.

Müstəqillik dövrü Azərbaycan xalçaçılığının inkişafının növbəti mərhələlərindəndir. Yeni kompozisiyalar, yeni süjet xətti, müxtəlif naxış elementləri meydana gəlməyə başladı.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Azərbaycanda xalçaçılığın inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir. Dövlət başçısının bu istiqamətdə imzaladığı fərmanlar, həyata keçirilmiş əhəmiyyətli tədbirlər Azərbaycan xalça sənətini bir daha dünya mədəniyyətinə tanıtdı.

2005-ci ildən "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə ölkə başçısının fərmanı qeyd edilənləri bir daha təsdiq edir.

**I Fəslin II yarımfəslində** müstəqillik dövründə fəaliyyət göstərən xalça istehsal mərkəzlərinin fəaliyyəti araşdırılır. Qeyd olunur ki, müstəqillik dövründə fəaliyyət göstərən xalça istehsal mərkəzlərinin fəaliyyəti ilə xarakterizə olunur. Bu dövrdə "Azərxalça" İBM, Quba rayonunda fəaliyyət göstərən "Aygün", "Azər-İlmə" ASC və "Qədim Quba" xalça yaradıcılıq mərkəzlərinin xalça sənətinin inkişafı yolunda apardıqları işlər təqdirəlayiqdir.

1994-cü ildən fəaliyyət göstərən Azər-İlmə Məhdud Məsuliyyətli Cəmiyyəti yalnız ölkə daxilində deyil, onun hüdudlarından kənarda da çox uğurlar qazanımışdır. Mərkəz Bakı, Qazax, Borçalı, İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Quba, Təbriz, Şirvan xalça qruplarının çeşniləri əsasında xalçaların yaradılması ilə yanaşı, bədii üslub və yüksək texnikaya malik müasir tipli nümunələr üzərində də çalışır.

"Azərxalça" İstehsalat Yaradıcılıq Birliyi xalça sənətinin inkişafında fəaliyyət göstərən mərkəzlərdən biri kimi ənənəvi naxış, elementləri yaradıcı formada əlavə və dəyişmələri ilə klassik xalça kompozisiyalarının sayını daha da zənginləşdirir. Mərkəzdə çalışan ustad sənətkarların yaratdıqları yeni ornament və çeşnilər əsasında toxunan xalçalar klassik kompozisiyaların zənginləşdirilməsində xüsusi rol oynayır.

Quba rayonunda yaradılmış "Aygün" İstehsalat Yaradıcılıq Mərkəzinin fəaliyyəti əsasənunudulmaqda olan ənənələrin yenidən bərpa edilməsi ilə də səciyyələnir. Mərkəzdə eyni zamanda qədim xalq sənətinin sirləri gənc nəslə öyrədilir.

Qubada fəaliyyət göstərən digər yaradıcılıq mərkəzi "Qədim Quba" 2001-ci ildən fəaliyyət göstərir. Mərkəzin əsas xüsusiyyəti buradakı xalçaların yalnız sifarişlər əsasında  böyük ölçülü xalıların toxunmasından ibarətdir.

Fəaliyyət göstərən mərkəzləri birləşdirən səciyyəvi xüsusiyyət onların əsas məqsəd kimi Azərbaycan xalçalarının unudulmaqda olan çeşnilərin bərpa edilməsi, xalçaların bədii ənənələrini yaşatmaq və gələcək nəsillərə ötürmək, Azərbaycan xalçasının beynəlxalq miqyasda ticarətini təşkil etməklə, layiqli şəkildə təbliğinə nail olmaqla səciyyələnir. Milli ənənələrə sadiqlik xalça mərkəzlərinin əsas prinsipidir.

Dissertasiyanın **"Müstəqillik dövründə fəaliyyət göstərən xalçaçı-rəssamların yaradıcılığındakı ornamental xalçalar"** adlı **II fəslin I yarımfəslində** müstəqillik dövrü ornamental xalçalarının bədii xüsusiyyətləri üzə çıxarılır. Qeyd olunur ki, bu gün Azərbaycan

xalçaçılığında ornamental xalça nümunələri özünəməxsus şəkildə inkişaf edərək hər bir xalçaçı-rəssamın yaradıcılığında xüsusi fərdiyyət yaradır.

Kamil Əliyevin ornamental xalçalarındakı kəskin kolorit duyumu, əlvan rənglərin istər təzadlı, istərsə də uyarlı qarşılığı əsərlərindəki duyğunu, təsir gücünü yaradan əsas nüanslardır. Bu xüsusiyyətlərə onun "Qırmızı bülbül" (1994), "Göllü" (1999), "Qımıl" (1995), "Butalı" (2004), "Qızılı xalça" (1994), "Qımıl" (1998), "Sandıqça" (1999) kimi əsərlərində rast gəlinir[20]. Kamil Əliyevin ornamental xalçaları arasında 2004-cü ildə həyata keçirdiyi "Butalı" xalçası öz bədiiliyi ilə diqqəti cəlb edir. Öz xalçalarında firuzəyi, qızılı rənglərə geniş yer verən rəssam burada da həmin çalarlardan məharətlə istifadə edərək gözəl sənət əsəri yaratmağa nail olmuşdur. Klassik məktəbin ənənələrinin duyulduğu xalçanın arasahəsində açıq rəngli yerlik üzərində buta elementinin xırda çiçəklərin vasitəsilə ritmik, simmetrik düzülüş xalçaya güclü dinamika verir. Bütün xalçalarında nəbati elementlərə üstünlük verən K.Əliyev bu ornamentlərin düzülüşündə butaların arasında axarlı və ardıcıl keçidi ilə onların təsvirini yükləməmiş, əksinə daha da gözəllik qatmışdır. Ana haşiyədə arasahədə nisbətən tünd yerlik üzərində qızılı və firuzəyi rəngli nəbati ornamentlərlə həll olunması xalçanın ümumi görünüşünə zənginlik gətirir.

Müstəqillik dövründə geniş yaradıcılıq fəaliyyəti göstərən Məmmədhüseyn Hüseynovun ornamental xalça nümunələri olan "İslimibəndlik" əsərində islimilərin tor şəkilində bir-birinə keçidini elə ustalıqla vermişdir ki, əsərdə duyğulu, xoş bir harmoniya, vəhdət yaranmışdır. Əsas olan göl hissə xalçanın xarakterini müəyyən edir. Haşiyədə isə istifadə olunan ornamentlər kompozisiyanı tamamlayır. Xalça təbiətdə mövcud olan və olmayan xəyali heyvanların, quşların həndəsiləşdirilmiş qarışıq təsvirləri ilə zəngindir.

Təbriz qrupuna aid "Sufi" adlı xalça Məmmədhüseyn Hüseynovun yaradıcılığında şah əsərlərindən hesab edilir. Xalçada sufilik fəlsəfi poeziyasını özünəməxsus şəkildə açıqlamağa çalışmış xalçaçı-rəssam burada xüsusi kompozisiya quruluşundan istifadə etmişdir. Maddi dünyanı tərk edərək mənəvi saflığa çatmaq, bu yolla da Allaha yaxınlaşmaq istəyinin fəlsəfi ideya xalçada özünəməxsus təsvir vasitələri ilə açıqlanmışdır.

---

[20]Əliyeva K. Kamil Əliyev: Azərbaycanın Xalq rəssamının yaradıcılığı. Bakı: Şərq-Qərb, 2014, s.14.

Əsasən L.Kərimovun eskizləri əsasında ornamental xalçaları üzərində çalışan toxucu-texnoloq Zəhra Əliyeva da müasir xalçaçılıq sənətinin inkişafına töhfələr verən uğurlu xalçalar yaradır. Onun "Nabur" adlı iki xalça nümunəsi arasındakı fərqi izah edərkən burdakı əsasən rənglərin müxtəlif koloritdə həll olunmasından söhbət gedə bilər. Üçgöllü kompozisiyanın pilləli kəskin bucaqlarının ağ rəngli konturları birinci xalçada sürməyi, ikinci xalçada isə zoğalı yerlik üzərində xüsusi gözəllik yaradır. Arasahədəki boşluqların doldurulması üçün xırda həndəsi və gül elementlərindən istifadə edilib. Z.Əliyevanı Qazax qrupunun elementləri əsasında hazırladığı "Quşlu", Qarabağ qrupuna aid "Qaçaqan", Bakı qrupunun klassik elementlərinin cəmləşməsi əsasında yaradılmış "Qızıl rənglər", "Qırız-Quba", "Qazaxstar" ("Köhnə Qazax"), "Əlixanlı" adlı xalça kompozisiyları onun yaradıcılığında uğurlu işləri sırasındadır.

Xalçaçı-rəssam Əkbər Nağıyevin xalça kompozisiyaları klassik ənənələr əsasında qurulmuşdur. Rəssam bu xalçalarda öz əlavə və yeniliklərini etməklə bir tərəfdən həm klassikliyə sadiqliyini göstərmiş, digər tərəfdən onlar üzərindəki fərdi yaradıcılıq izlərini də əks etdirir. Rəssamın Şirvan xalçaçılıq məktəbinin zəngin və mürəkkəb naxışlı element və formaları əsasında həyata keçirdiyi "Geçə-gündüz", Qarabağ qrupuna aid "Açma-yumma" xalçası da öz uğurlu kolorit həlli, bədii keyfiyyətləri ilə xarakterizə olunur.

Azərbaycan xalçaçılığının müstəqillik dövründə inkişaf mərhələsini öz yaradıcılığı ilə davam etdirən xalçaçı-rəssamlardan biri də Münəvvər Hacıyevadır. M.Hacıyevanın ornamental xalçalarının bədii həlli klassik ənənələr əsasında xırda yeniliklərin əlavə edilməsi ilə həyata keçirilib.

"Kiçik Quba" xalçasında iki göllü kompozisiya pillэvarı həndəsi elementlərin vasitəsilə yaradılıb. Arasahədə stilizə edilmiş iti bucaqlı ulduz elementlərinin dördbucaq şəkilli formalarının və stilizə edilmiş doldurucu elementlərin sürməyi fon üzərində verilməsi onların rəsmilərini də daha da qabarıq görünməsini təmin edir. Xalçadakı elementlər pərakəndə deyil, simmetrik şəkildə sıralanmışdır. Ana haşiyə daha açıq ağ yerlik üzərində qarmaqlı elementlərin kiçik qarışlarla bir-birinin ardınca düzülməsindən ibarətdir. Xalçada sürməyi, qəhvəyi, mavi və digər rənglərin qarşılıqlı əlaqəsi kolorit baxımından məntiqidir. Xalçaçı-rəssam Zahidə Haşımovanın ornamental xalçaları özünün texniki və bədii xüsusiyyəti ilə müasir Azərbaycan xalçaçılıq sənətində yenilik kimi qiymətləndirilə bilər. İkiüzlü xovlu xalçanın ilk toxucusu

Azərbaycanda yalnız bu rəssama aiddir. Z. Haşımovanın toxuduğu namazlıq xalçaları da öz kolorit seçimi, bədii keyfiyyətləri ilə diqqəti cəlb edir. Bunların içərisində “Arı”, “Bico”, “Firuzə”, “Qollu Quba”, “Sarı gəlin” və digərlərini sadalamaq olar. Namazlıqların hər biri xüsusi bədii və texniki dəyərlərə malik olaraq biri digərini təkrarlamır.

**II Fəslin II yarımfəslində** bölgələr üzrə fəaliyyət göstərən xalçaçıların ornamental xalça yaradıcılığı araşdırılır. Regionlar üzrə xalça sənətinin müasir inkişafı, xalqın qədim zamanlarda yaratdıqları xalça ənənələrinin bu gün də öz dəyərini qoruyub saxladığını sübut edir.

Respublikanın rayon və kəndlərində xalça sənəti ənənələri ayrı-ayrı xalça ustaları tərəfindən davam etdirilir. Onların ənənəvi çeşnilərdə toxuduqları xalçalarda klassik kompozisiyalara yaradıcı münasibət qabarıq şəkildə özünü göstərir. Eyni zamanda xalçaçılıqda yeni-yeni kompozisiyalar, naxış elementləri meydana gəlir. Yeni yaranan çeşnilərdə nisbətən əyri xətlərlə işlənmiş nəbati naxışlara, insan, heyvan, quş təsvirlərinə, lirik və romantik üslubda yaradılmış süjetli kompozisiyalara meyl üstündür.

Bəlli olduğu kimi, Quba Azərbaycanın ən məşhur bölgələrindən biridir. Əsrlər boyu bu bölgənin kəndlərində bir-birindən ölçüsünə, naxış və rənglərinə görə seçilən saysız-hesabsız xalı-xalça toxunubdur. “Xırdagülçiçi”, “Sırtçiçi”, “Qoluçiçi”, “Pirəbədil”, “Xan”, “Qımıl” və digər xalçalar demək olar ki, dünyanın əksər muzeylərində saxlanılır. Xalçaçılıq bu bölgədə nəsillərdən üzü bəri yaşayan sənətdir. Burada toxunan xalçaların çeşnisi sadə, naxışları bir qayda olaraq kiçik ölçülü həndəsi, bəzən də stilizə edilmiş nəbati naxışlardan, və yaxud da böyük ölçülü rombvarı gülərdən ibarətdir.

Quba xalçaçılarından biri Nəzakət Süleymanovadır. Xalçaçının bir-birindən rəngarəngliyi ilə seçilən xalça çeşniləri klassik ənənələr üzərində qurulmuşdur. Xalçaçı öz işlərində xalqdan gələn çeşnilərə, eləcə də orta əsr Təbriz rəssamlarının yaratdığı çeşnilərə üstünlük verir. Lakin onun bütün kompozisiyaları yeni ideyalar və naxışlar əsasında işlənmişdir.

Ənənəvi çeşnilər üzrə toxuduqları xalçalar klassik kompozisiyalar üzərində yeni yaradıcı yanaşmalarla diqqəti çəkir. Bu isə xalçaçılıqda yeni kompozisiyaların, naxış elementlərinin meydana gəlməsi deməkdir. Yeni çeşnilərdə əyri xətlərlə işlənmiş nəbati naxışlara, insan, heyvan, eləcə də quş təsvirlərinə, daha romantik və lirik üslubda yaradılmış süjetli kompozisiyalara meylliliyin artdığı özünü büruzə verir.

Dissertasiyanın **“Müstəqillik dövründə yaradılan portret və süjetli xalçaların bədii xüsusiyyətləri”** adlı **III fəslin I yarımfəslində** müstəqillik dövründə Azərbaycan xalçaçı-rəssamlarının yaradıcılığında süjet müxtəlifliyi tədqiq edilir.

Hələ qədim zamanlardan süjetli xalçalar mövcud mühitin abu-havasına, rəssamın fəlsəfi daxili aləminə, həyata baxışına arxalanaraq müxtəlif mövzular əsasında toxunurdu. Araşdırmalar nəticəsində bu mövzular arasında ovçuluq, qəhrəmanlıq, məişət, ədəbi, dini süjetlərə həsr olunmuş mövzuların daha çox yayıldığı qənaətinə gəlirik.

Nadir yaradıcılıq manerasına malik xalçaçı-rəssam Eldar Mikayılzadənin süjetli ornamental xalçalarında ölçüsündən, naxışlarından tutmuş rənginə qədər hər bir nüans əsərdəki mövzunu, ideyanı açmağa xidmət edir.

“Şəbi-hicran” xalçası E.Mikayılzadənin həyata, Füzuli dünyasına fəlsəfi baxışlarını özündə əks etdirən, poetik obrazların özünəməxsus təsvirlərinin cəmləndiyi möhtəşəm sənət əsəridir. O, bu mövzuya ilk dəfə 1981-ci ildə də müraciət etmişdir. 2006-cı ildə yenidən eyni mövzuya qayıdaraq “Şəbi hicran”ı bu dəfə bir başqa fəlsəfi düşüncə kəsb edən kompozisiyada həyata keçirdi. Əsər müasir xalçaçılıq sənətində yenilik kimi qiymətləndirilir.

Arasahəsindən tutmuş bala haşiyəyədək xalçanın hər bir hissəsində müxtəlif fərqli mövzular özünü göstərir. Arasahədə kompozisiya asimmetrik planda həll olunmuşdur. Obrazların, elementlərin lirik dağınıqlığı xalçaya qeyri-adi romantik məna verir. Mərkəzdə Füzulinin qəmli çöhrəsi qırışmış alnında, cizgilərində təcəssüm olunur. Xırda ağ çiçəklərdən olan çalması, bəyaz saqqalı rəssamın mövzuya fəlsəfi yanaşması kimi izah olunur.

Bir qədər aşağı hissədə “Leyli və Məcnun” əsərindən qəhrəmanların müxtəlif səhnələrinin canlı ifadəsi, digər təbiət elementlərinin – güllərin, çiçəklərin, ağacların, budaqların, buludların – təsviri, Füzuli dünyasının xalçada bu şəkildə əks etdirilməsinin ideal variantıdır. Qalın gövdəli üç ağacın arasından səhnələrin, obrazların təsviri müəllifin təbiətlə insan arasındakı əlaqələrinin ifadəsi üçün uğurlu yaradıcılıq tapıntısıdır.

Xalçanın ana haşiyəsi özünəməxsus, fərqli üsullarla həll olunub. Stilizə edilmiş yarpaq, gül elementlərinin arasından Məcnunun əzablı obrazı, Leylinin çarəsiz siması boylanır. Haşiyədə işlənən şamların təsviri fəlsəfi məna daşıyır: bu, Leyli və Məcnunun vüsala çatmayan məhəbbətinin əbədi ölməzliyini simvolizə edir.

Sənətşünas Ziyadxan Əliyev "Şəbi-hicran" xalçası haqqında qeyd etmişdir ki, bütünlükdə Eldar Mikayılzadənin yaratdığı nadir "Şəbi-hicran-2" xalçası əfsanəyə dönmüş məhəbbətlə Füzuli poeziyası arasında obrazlı bir körpüyə bənzəyir.

Eldar Mikayılzadənin 2010-cu ildə toxuduğu 150x230 sm ölçüsündə olan "Yaranış" adlı xalça olduqca qeyri-adi süjet xəttinə malikdir.

Rəssam xalçanın üzərində iki il müddətində çalışmışdır. "Yaranış" xalça sənəti üçün uğurlu yenilikdir. Bədii həllinə görə xalça sənətinin özünün toxunuş prosesinin özündə əks etdirən əsər, çoxfiqurlu kompozisiya üzərində qurulmuşdur. Aşağı hissədən başlayaraq xalçanın yaranma prosesinin – qoyunun qırxılmasından, ipin əyrilməsindən, boyanmasından və s. tutmuş ta xana üzərində xalçanın toxunma anına, yəni arişin çəkilməsi, arişlərin cütləşdirilməsi və toxunuşa başlanması üz ipləri ilə kompozisiyanın arişlər üzərinə köçürülməsi, nəhayət xalçanı bitirib onu bazara çıxarılaraq satılmasına qədər – mərhələ-mərhələ bədii şəkildə əks edilməsi xalçanın süjet xəttini təşkil edir. Ənənəvi elementlərdən tamamilə uzaq olan xalça arasahədən ibarət olaraq bitkin kompozisiyanı özündə əks etdirir. Kompozisiyada çox sayda fiqurların təsvirinə baxmayaraq onların heç birinin kəmiyyət xarakterli deyil, məqsədli şəkildə yer aldığını görürük. Fiqurların hər birinin özünəməxsus işi var. Bu da xalça sənətinin ağır və zəhmət tələb edən proses olduğunu göstərir. Xalçanın maraq yaradan tərəflərindən biri "Şeyx Səfi", "Pazırık", "Pirəbədil", "Sərab", "Xilə-Buta", "Çiçi" xalçalarının, vərni, Qarabağ xurcunlarının da təsvirinin verilməsini xüsusilə diqqətəlayiqdir. Ənənələrin davam etməsi, zəhmətli işin gedişatı və alınan mükəmməl nəticə... Xalçanın yaranış prosesinin bütün bu mərhələlərinin ardıcıllıqla çatdırılması kompozisiya xəttində qarşıya qoyulmuş məqsəddir.

Sənətkarın yaradıcılığında şəxsi dünyaduyumunun bədii-fəlsəfi tərənnüm forması kimi çıxış edən daha bir əsəri müasir Azərbaycan xalçaçılığının inkişafında böyük yenilik hesab edilə bilər. Bu onun "Kəhkəşan" adlanan əsəridir. Adı gedən əsərlə xalçaçı-rəssam fərqli yaradıcılıq potensialının sonsuz təxəyyül gücünə malik olduğunu təsdiqlədi.

Tarixi mənbələrə əsasən haqqında sadəcə yazılı məlumatlarda rast gəlinən bu xalça ilk dəfə Sasani hökmdarı Xosrov Pərvizin (VII əsr) dövründə toxunulmuşdur. E.Mikayılzadənin müəllifi olduğu

“Kəhkəşan” dünyada ikinci hesab edilir. Bu xalçaları birləşdirən onların texniki baxımdan uyğunluqlarıdır.

Sənətşünas Ziyadxan Əliyev əsər haqqında qeyd etmişdir ki, “... 2010-cu ildə Azərbaycanın çağdaş xalçaçılıq məkanında az qala “təklənmiş” kimi görünən E.Mikayılzadə keçmişə baxmağa özündə bütün mənalarda güc hiss etdi”[21].

Qızıl və ipək saplardan toxunmuş xalçaların üzərindəki naxış elementləri müxtəlif daş-qaşlarla bəzədilmişdir. Bununla sənətkar xalçasını daş-qaşların vurduğu dəyərlə qiymətləndirməyə çalışmamış, ona tamamilə başqa bir aspektdən yanaşmışdır. Daş-qaşlarla sonsuz kəhkəşanda sayrışan ulduzların dolaşıq parıltısı, onların arasında gəzişən bürclər xalçada bitkin kamilliyi ifadə edir. Daş-qaşın hər bir element üzərində yaratdığı rəngli işıltı əsəri daha da təsirli edir.

E.Mikayılzadə yaradıcılığında dini mövzulara da müraciət etmişdir. “Tövrat” (1999), “Xilaskar” (1997), “Suliddin” (islamın 5 əsası) (1991), “Peyğəmbərin şəcərəsi” (1998), “Üç peyğəmbər” (2004), “İsanın zühuru” (2000) əsərləri onun bu mövzuda yaratdığı əvəzsiz sənət nümunələridir. Hər bir xalça öz mücərrəd kompozisiya quruluşu ilə fərdiyyət yaratsa da, xalçalardakı təzadlı rənglərdən yaranmış asimmetrik kompozisiya ifadəsini onların hamısına şamil etmək olar.

Süjetli xalçaların toxunması çox qədim tarixə və zəngin ənənələrə malikdir. Bu ənənələri yaradıcılığında davam etdirən görkəmli xalçaçı rəssamlarımızdan Aydın Rəcəbovun adını xüsusi qeyd etmək olar.

Yaradıcılığının ilkin dövrlərində ornamental xalçalar yaratmağa həvəs göstərən Aydın Rəcəbov, sonradan qeyri-ornamental xalçalar üzərində çalışmağa başlayır. Bunu onun düşüncələrini süjetlə çatdırmaq istəyindən irəli gəlməsi ilə izah etmək olar.

Sənətşünaslıq doktoru, professor Kübra Əliyeva xalçaçı-rəssam Aydın Rəcəbov haqqında qeyd edir ki, “o, interyerin bədii tərtibatında istifadə etdiyi xalça materiallarında elə motivlərdən istifadə edir ki, onlar sadəcə memarlıq mühitinə daxil olmur, eyni zamanda mühitin monumentallığını bir daha sübut edir”[22].

Rəssamın süjetli xalçaları müxtəlif mövzular üzərində qurulmuşdur. Yaradıcılığının müəyyən dövrlərində öz xalça və naxış yaradıcılığında əsasən poeziya qaynaqlarına, orta əsr miniatür sənətinin ənənələri və kompozisiya quruluşuna müraciət edir.

---

[21]Əliyev Z. Ecazkar xalçaların yaradıcısı: Eldar Mikayılzadənin “Kəhkəşan” xalçası dünya xalçaçılığında yeni sözdür // “525-ci qəzet”. 2013.17 yanvar,s.7.

[22]Əliyeva K. Aydın Rəcəbov. Kataloq // Bakı-2005, s.14.

Miniatür üzərində qurulmuş Azərbaycan xalçaları tarixən əsasən ölkənin cənubunda toxunub. Müxtəlif ov, savaş səhnələri, saray əyanlarının, şahların yaşayış tərzləri belə xalçaların süjet xəttini təşkil edirdi. Onların toxunmasında son dərəcə keyfiyyətli yun, zərif iplikdən istifadə olunurdu. Yüksək sıxlıq və zərif xov bu xalçaların əsas texniki cəhətidir.

Aydın Rəcəbov xalçalarında bu ənənələrlə müasirliyi sintez edərək uğurlu kompozisiyalar yaratmışdır. Məsələn, "Münəccimlər", "Şirinin Bisituna gəlməsi", "Bahar qızı", "Şərq gözəli", "Ud çalan oğlan", "Çövqan oynadan şahzadə", "Şahın elçiliyi" və digər bu kimi əsərlərini nümunə göstərə bilərik.

Xalçaçı-rəssam E.Hacıyevin klassik miniatür sənətinə bağlı bir rəssamdır. Onun xalçaları çoxfiqurludur. Rəssamın ipək saplarla yaratdığı əsərləri klassiklərin, o cümlədən Ömər Xəyyam və Nizami Gəncəvinin əsərləri süjetləri əsasında toxunmuşdur. Lakin zaman-zaman rəssam dini-Pravoslav süjetlərinə, o cümlədən Bibliya süjetlərinə həsr olunmuş xalçalarda yaradır.

Eldar Hacıyevin "Ana Məryam" xalçası öz sadə kompozisiya quruluşu və mürəkkəb süjetli haşiyə qurşaqları ilə xarakterikdir.

Arasahədə "Ana Məryəmin körpəsi ilə "Sənə sevinirik" adlı təsvirləri öz əksini tapmışdır. Təsvirlər ikonoqrafik üslubda yerinə yetirilmişdir. Xalçanın arasahəsini əhatələmiş ana haşiyədə düzbucaqlı göllərin daxilində İsa Peyğəmbərin həyat yolunu təsvir edən müxtəlif süjetli səhnələr öz əksini tapmışdır. Xalçanın şaquli düzbucaqlı formasında olan arasahəsi ana haşiyə və iki bala haşiyə ilə əhatələnmişdir. Mərkəzdə kilsə fonunda mələklərlə əhatə olunmuş Ana Məryəmin körpəsi ilə süjeti ön planda yerləşdirilmişdir. Xalçanın aşağı hissəsində dinin xristian dinin nümayəndələri və apostllar cəmləşərək bu səhnəni müşahidə edirlər. Ana haşiyənin aşağı və yuxarı hissəsində müxtəlif dini süjetlər naxışlarla növbələşdirilərək biri-birini əvəz edir. Ana haşiyənin yan tərəflərində isə mələklər təsvir olunub.

Müstəqillik dövründə Azərbaycan xalça sənətinin inkişafında öz dəsti-xətti ilə seçilən xalçaçı-rəssamlardan olan Gülmurad Bəbirovun "Leyli və Məcnun", "Ovçuluq", "Beyrəklə Banuçiçəyin görüşü" və digər süjetli xalçaları xüsusi əhəmiyyətə malikdir. Onların sırasında "Min bir gecə" adlı xalça özünün zəngin, şux koloriti, gözəl tapılmış kompozisiya həlli baxımından diqqətəlayiqdir.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında xalça sənətinin sirlərini gənc nəslə sevə-sevə aşılayan xalçaçı-rəssam Minaxanım

Hüseynovanın yaratdığı xalçalar bu sənətin bugünkü inkişafında öz sözünü deməkdədir.

Onun əsas işlərindən sayılan "Məhəbbət dastanı" adlı ornamental süjetli xalçası öz maraqlı kompozisiya quruluşuna görə seçilir.

Xalçanın süjetinin əsas qəhrəmanları xalçanın mərkəzində yerləşən bulud elementləri ilə əhatə olunan gənc qız və oğlandır. Təsvir edilmiş obrazların ətrafının bulud elementləri ilə işlənməsində məqsəd, onları şər qüvvələrdən qorumaq və saflıq, aydınlıq içində saxlamaqdır. Ağ çiçəklər açmış ağac səmtində qızın təsviri, şam ağacı olan tərəfdə oğlanın rəsmi verilmişdir. Arasahənin xalçanın sağ və sol tərəfində ağacın budaqlarında boylanaraq bir-birinə baxan iki quş təsviri isə məhəbbət simvolunu ifadə edir. Xalça boyu islimi elementindən çıxan 12 ceyran fiquru təsvir olunmuşdur ki, onlar da özlüyündə sakitlik və əmin-amanlığı ifadə edirlər. Xalçanın ana haşiyəsində kətəbə elementinin üzərində iki ceyranın, sağ və sol tərəflərində isə bir-birinə sarılan ağacların təsvirləri daimi və ayrılmaz məhəbbətin ifadəsi kimi verilmişdir.

**III Fəslin II yarımfəslində** müstəqillik dövründə yaradılan portret xalçaların bədii xüsusiyyətləri təhlil edilir.

Xalçalar üzərində portretlərin yaradılması digər incəsənət janrlarına görə daha mürəkkəb bir prosesdir. Çünki burada obrazın xarakterinin açılmasında, cizgilərinin verilməsində vurulmuş hər bir yanlış ilmənin üzərində yenidən işləmək mümkün deyil. Bundan əlavə portreti əhatələyən süjet xətti, ornamentasiya arasındakı uyğunluğun yaradılması böyük əhəmiyyət kəsb edir.

Böyük yaradıcı istedada malik xalçaçı-rəssamlardan xalq rəssamı Kamil Əliyevin adı Lətif Kərimovdan sonra ikinci sırada dayanır. Lakin L.Kərimovun sağlığında Azərbaycan Dövlət və Mədəniyyət İncəsənət Universitetinin toxuculuq fakültəsində oxuyub təhsil alan onlarca tələbələrinin hamısı portret janrında müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Onların qeyri-adi peşəkar manerası istər süjetli, istərsə ornamental xalça nümunələrinin təqdimatı ilə Azərbaycan xalça sənətinin inkişafında əvəzsiz əhəmiyyətə malikdir.

Portret xalçalarını araşdırarkən K.Əliyevin bu sahədəki yaradıcılığı xüsusi nümunə kimi götürülə bilər. Rəssamın ulu öndərimiz Heydər Əliyevin 1998-ci ildə şəxsiyyətinə həsr etdiyi xalçasını bu janrda işlədiyi uğurlu əsərlərindən hesab etmək olar. Xalçanın arasahəsində xırda, zərif gül-çiçək ornamentləri qızılı, sürməyi rənglərin axarlı keçidi ilə çərçivələnmiş medalyonun üzərində ümummilli liderin

general geyimindəki məğrur siması canlandırılıb. Obrazın dərin baxışlarında xarakterindəki səbir, təmkin, qürur və dərin təfəkkürün cizgiləri əks olunmuşdur. Arasahənin mətni qızılı zərif nəbati elementlərin xoş ahəngində həll olunub. Gölün aşağı hissəsində verilmiş dördbucaq şəklində xonça tipli element xalçadakı boşluğun doldurulmasına xidmət edir.

K.Əliyevin 2001-ci ildə yaratdığı görkəmli oftolmoloq, akademik Zərifə Əliyevanın portret-xalçası diqqətəlayiq əsərlərindəndir. Arasahədə xırda nəbati elementlərin çərçivəyə aldığı portretdə Z.Əliyevanın gülərüzlü xoş siması canlandırılmışdır. Zoğalı yerlik üzərində xırda gül-çiçək oramentlərinin yerləşdirilməsi xalçanın xarakterini, xoş aurasını daha da artırır. Aşağı hissədəki xonça elementi isə ümumi mənzərəni baxımlı etməklə yanaşı, həm də bitkin kamil əsər nümunəsini təqdim edir.

Müstəqillik dövründə geniş və məzmunlu yaradıcılıq fəaliyyətinə məxsus əvəzolunmaz dəsti-xətti ilə seçilən xalçaçı sənətkarlardan biri olan Eldar Mikayılzadənin yaradıcılığı xüsusilə diqqətçəkəndir.

E.Mikayılzadə H.Əliyev obrazına iki dəfə öz yaradıcılığında müraciət etmişdir. 2003-cü ildə ölkə prezidentinin kürsüdə əyləşmiş təsvirini özündə əks etdirən xalçada, portret bütün arasahəni əhatə edir. Xalçada ana haşiyə arasahəni çərçivələyir. Arxa fonda verilmiş Azərbaycanın milli dövlət atributları, həmçinin təbiət təsvirini özündə əks etdirən mənzərə janrında işlənmiş tablo ümumi kompozisiyanı təşkil edir. Haşiyədəki bəzək elementlərinin ardıcıl axarlı sıralanması, xırda gül və yarpaq ornamentlərinin stilizə edilmiş formalarından ibarət bala haşiyə arasahədəki təsviri məntiqi surətdə tamamlayır.

Sənətşünas Ziyadxan Əliyev xalçaçı rəssam Eldar Mikayılzadə haqqındakı fikrini belə ifadə edir: "Yaratdığı çoxsaylı sənət nümunələri ilə Eldar Mikayılzadə müasir Azərbaycan xalçaçılığında yeni səhifələr açmağa, xalq dekorativ-tətbiqi sənətini özünəməxsus məziyyətlərlə zənginləşdirməyə nail olmuşdur"[23].

Xalçaçı-rəssam Məmmədhüseyn Hüseynov yaradıcılıq xüsusiyyətindən irəli gələrək portret janrına o qədər də üstünlük verməsə də, onun az sayda da olsa bir neçə portret xalçaları vardır.

Onun bu qəbildən olan əsərlərindən birinə nümunə olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin obrazını canlandıran portret-xalçasını göstərmək olar.

---

[23]Əliyev Z. Ecazkar xalçaların yaradıcısı: Eldar Mikayılzadənin "Kəhkəşan" xalçası dünya xalçaçılığında yeni sözdür // "525-ci qəzet". 2013.17 yanvar, .7.

Xalçanın əsas hissəsində prezidentin məğrur və möhtəşəm təsviri verilmişdir. Rəhbərin obrazının dərindən ifadəsinin verilməsi vasitələrinin axtarılması M.Hüseynovun fərdi düşüncə tərzinin məhsuludur.

Müasir dövrümüzdə yaradıcılığı ilə diqqət çəkən xalçaçı-rəssamlardan Fazil Abbasquluzadədir. Çox sayda maraqlı kompozisiyalara malik portret xalçaların müəllifi olan rəssam şair Zəlimxan Yaqubun, xalq artisti Yaşar Nurinin, riyaziyyatçı-alim Fərəməz Maqsudovun və digər məşhur şəxslərin simasını öz xalçalarında əks etdirmişdir. Rəssam bu xalçalarda ayrı-ayrı bədii keyfiyyətləri ilə seçilən obrazların daxili aləmini açmaq üçün müxtəlif bədii vasitələrdən məharətlə istifadə etmişdir.

Dissertasiyanın **“Azərbaycan təhsil sistemində xalça sənətinin təbliği və inkişaf yolları”** adlı **IV fəslin I yarımfəslində** xalçaçılığım milli sənət kimi təhsil sistemində yeri və rolu araşdırılır.

Xalçaçılığın inkişaf istiqamətlərini müəyyənləşdirən amillərdən biri kimi onun elm sahəsi kimi təhsil sistemində öyrənilməsi böyük əhəmiyyət daşıdığını deməyə əsas yaradır. Əvvəllər ustad sənətkarlar tərəfindən nəsildən-nəslə ötürülərək yaşanan xalça sənətinin öyrənilməsi müasir dövrdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Rəssamlıq Akademiyasının nəzdindəki İncəsənət Kollecində, o cümlədən incəsənət yönümlü digər kolleclərdə tədris edilir. Eyni zamanda müxtəlif peşə məktəblərində sənətin sirləri gənc rəssamlara tədris edilir. Ölkənin paytaxtında yerləşən bu istiqamət üzrə muzeylərin təşkili də xalça sənətinin muzey təhsilində tədqiq edilərək ənənəvi kompozisiyaların, çeşnilərin, ümumiyyətlə, tarixi inkişaf prosesinin öyrənilməsində xüsusi rol oynayır.

Xalçaçılığın elm və sənət sahəsi kimi təhsil sistemində öyrənilməsi ali, eləcə də orta ixtisas peşə yönümlü tədris müəssisələrində, o cümlədən muzey təhsilində tətbiq edilərək klassik xalça irsi əsasında yeni tipli xalça əsərlərinin meydana gəlməsinə zəmin yaradır.

**IV Fəslin II yarımfəslində** gənc xalçaçı-rəssamların yaradıcılıq fəaliyyəti izlənilir. Xalçaçılığın eyni zamanda gənc yaradıcılar tərəfindən də davam etdirilərək qədim bədii ənənələrin yeni formalarla zənginləşdirilməsi xarakterizə edildiyini əsaslandırır. Tədqiqatın qeyd olunan istiqamət üzrə araşdırılması gənc xalçaçı-rəssamların geniş fəaliyyətlərinin müxtəlif istiqamətlər üzrə inkişaf edərək müstəqillik

dövründə xalçaçılığın müasir inkişaf istiqamətini şərtləndirən amillərindən biri kimi qiymətləndirilməsini deməyə əsas yaradır.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının xalçaçı-rəssam ixtisası üzrə magistr pilləsinin məzunu Vazehli Leylanın "Aylı minarə" adlı xalça əsəri özünün yüksək bədii xüsusiyyəti, süjet xətti ilə professional səviyyədə həyata keçirilmişdir.

Rəssamlıq Akademiyasında təhsil almış Arzu Haşımova çox qısa ömür yaşamasına baxmayaraq bu sahədə olduqca maraqlı layihələr həyata keçirmişdir. Onun "Simurq quşu", "Bahar buta", "Bülbül" kimi xalçalarına yüksək bədii və texniki keyfiyyətlərə malik sənət nümunələri hesab etmək olar. Onun yaradıcılığında zərif nəbati ornamentlərin, eləcə də, islimi, yarpaq, qönçə elementlərin istifadəsi üstünlük təşkil edir.

A.Haşımovanın 2000-ci ildə toxuduğu "Bülbül" adlı əsər miniatür ənənələri əsasında toxunmuş portret-xalçadır. Azərbaycanın musiqi korifeyi Bülbülün obrazı burada şərti-dekorativ üslubda həyata keçirilmişdir. Əsərdəki hakim olan rahat və sakit ab-hava xalçanın xarakterini müəyyən edir. Arasahədə mavi fonda zərif çalarlı çiçəklənmiş budaqların, ağ buludların təsviri bu xarakterliliyi şərtləndirir. Əlində ağ vərəq tutmuş Bülbülün obrazı yan görünüşlü təsvir edilmişdir. Məşhur sənətkarın obrazını ağ buludların əhatələməsi əsərdəki lirizmi artırır.

A.Haşımovanın toxuduğu digər xalçaları "Balalı Buta", "Simurq quşu" "Bülbül" əsərindəki sakit ab-havanın əksinə olaraq elementlərinin dinamik, rəng həllinin daha kəskin vuruşu ilə fərqlənir.

"Simurq quşu" xalçasının elementlərlə sıx olan bütün hissələri bir-biri ilə üzvi surətdə birləşərək vəhdət təşkil edir. Arasahədə şux qırmızı yerlik üzərində alov parçalarını xatırladan elementlərin "rəqsi" verilmişdir. Nəbati, bulud, quş elementlərinin stilizə olunmuş qarşılıqlı formalarının əlaqəli təsviri mərkəzdə mavi fonda ağ buludların arasında pərvazlanan Simurq quşunun çırpınan son ölüm anlarını olduqca təsirli formada əks etdirir.

Tədqiqatın qeyd olunan istiqamət üzrə araşdırılması gənc xalçaçı-rəssamların geniş fəaliyyətlərinin müxtəlif istiqamətlər üzrə inkişaf edərək müstəqillik dövründə xalçaçılığın müasir inkişaf istiqamətini şərtləndirən amillərindən biri kimi qiymətləndirilməsini deməyə əsas yaradır.

**Nəticədə** tədqiqatın əsas qənaətləri yekunlaşdırılır:

1. müstəqillik dövrü Azərbaycan xalçaçılığının inkişafının növbəti mərhələləri yeni kompozisiyalar, yeni süjet xətti, müxtəlif naxış elementləri meydana gəldiyinin şahidi olduq;
2. müstəqillik dövründə fəaliyyət göstərən xalça istehsal mərkəzlərinin "Azərxalça" İBM, Quba rayonunda fəaliyyət göstərən "Aygün" , "Azər-İlmə" ASC və "Qədim Quba" xalça yaradıcılıq mərkəzlərinin fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, toxuduqları xalça nümunələri üzərində aparılan təhlillər öz əksini tapmışdır;
3. aparılan tədqiqat üzrə fəaliyyət göstərmiş bir çox müasir xalçaçı-rəssamların fəaliyyətini müstəqillik dövründə xalçaçılıq sənətinin inkişafında əsas mərhələ kimi dəyərləndirməyə imkan yaradır;
4. müstəqilik dövrü Azərbaycan xalçaları mövzu, kompozisiya, ornament baxımından daim fərdiyyət yaradaraq ayrı-ayrı xalçaçı-rəssamların yaradıcılığında özünün fərqli təsvir xüsusiyyətini nümayiş etdirməkdədir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalələrdə əksini tapmışdır:**


1. "Müstəqillik dövründə Azərbaycan xalça sənətinin inkişafının əsas istiqamətləri" // "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə**.** № XXVI**.** Bakı: 2013, s. 94-99.
2. Şəki şəhərində sənətkarlığın dünəni və bu günü (Şəkinin ipək xalçaları) // "Elmi əsərlər". ADMİU-nun toplusu. №15 , Bakı, 2013, s.161-166.
3. Xalça rəssamı Nəzakət // "Qobustan" sənət toplusu**.** №.2**.** Bakı, 2014, s.71-75.
4. Azərbaycan xalça sənətinin tarixi inkişafı // AMİ-nin elmi xəbərlər jurnalı. №3, Bakı, 2014, s.146-150.
5. Мир ковров художника Эльдара Микаилзаде // "Научные исследования в сфере гуманитарных наук: открытия XXI". Материалы II Международной научно-практической конференции. Пятигорск, 2015, s.229-233.
6. Xalça istehsalat mərkəzləri // "Sənətkar" elmi-pedaqoji, metodik jurnal. №2, Bakı, 2015, s.47-53.
7. Qayğı sözü və qayğı özü // "Azərbaycan məktəbi". Elmi-nəzəri, pedaqoji jurnal. №.2 (266)**,** Bakı, 2015, s.177-183.
8. Hüseynov Məmmədhüseyn Allahqulu oğlunun xalça yaradıcılığı // "Şərq ölkələri Beynəlxalq memarlıq Akademiyası və AMEA

Memarlıq İncəsənət İnstitutunun “Memarlıq, şəhərsalma tarixi və bərpası” elmi nəzəri məcmuəsi. №1 (9), Bakı, 2015, s.177-183.
9. Sadə toxuculuq üslubu // AMEA-nın “Elm və həyat” jurnalı. № 1, Bakı, 2016, s.136-139.
10. Становление ковроткачества в Азербайджане: Художественные особенности // БГО Українська Академія Наук. «Гілея» Науковый Вичник. Киев, 2015, 94 (№ 3), с.136-139.
11. Ковроткачества как важный элемент прикладного искусства Азербайджане: «Вектор науки» Тольяттинского Государственного Университета. № 1 (20), Россия, 2015, с.85-87.
12. Səfəvi xalçaları. I cild. Bakı: Avpoliqraf. 2016. 207 s.
13. Səfəvi xalçaları. II cild. Bakı: Avpoliqraf. 2017. 217 s.

*Саида Рза гызы Салим-заде*

## Развитие искусства ковра в Азербайджане в период независимости и его художественные особенности

Диссертация посвящена исследованию развития коврового искусства Азербайджана в период независимости республики и выявлению его художественных особенностей.

Диссертация состоит их введения, четырех глав, восьми подглав, заключения и библиографического аппарата. Во введении обосновывается актуальность темы, определяется степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**I глава** – «Становление и пути развития азербайджанского коврового искусства» исследует этапы развития коврового искусства Азербайджана, рассматривается деятельность ковровых производственных центров периода независимости.

Во **II главе** – «Орнаментальные ковры в творчестве художников по ковру, работающих в период независимости» рассматриваются художественные особенности орнаментальных ковров исследуемого периода. Анализу подвергается творчество региональных художников по ковру, создающих в основном орнаментальные ковры.

В **III главе** – «Художественные особенности сюжетных и портретных ковров, созданных в период независимости» исследуется сюжетное разнообразие в творчестве художников по ковру, а также анализируются художественные особенности портретных ковров периода независимости.

В **IV главе** – «Пропаганда и пути развития коврового искусства в системе образования Азербайджана» отмечается, что научное изучение коврового искусства в высших и средних специальных учебных заведениях, а также его пропаганда в музейном деле служит основой для создания новых типов коврового искусства на основе классического наследия ковра.

**В Заключении** обобщаются основные выводы исследования.

*Sayida Rza gizi Salim-zadeh*

## Development of carpet art in Azerbaijan in the period of independence and its artistic features

The thesis is devoted to the study of the development of carpet art of Azerbaijan in the period of independence of the republic and revealing its artistic features.

The thesis includes an introduction, four chapters, eight sub-chapters, a conclusion and bibliography. The introduction argues the actuality of the theme, determines the degree of investigation of the problem, its purpose and objectives, describes the scientific novelty, and characterizes main sources, the chronological framework and practical significance of the work.

**The first chapter** - "Formation and development of Azerbaijani carpet art" explores the stages of the development of carpet art in Azerbaijan, the carpet production centers of the period of independence are considered.

**In the second chapter** - "Ornamental carpets in the work of artists on the carpet, working in the period of independence", the artistic features of ornamental carpets of the period under study are considered. Analysis of the work of regional artists on the carpet, creating mostly ornamental carpets.

**In the third chapter** - "Artistic features of story and portrait carpets created in the period of independence", the subject variety in the artists' carpets is studied, as well as the artistic features of portrait carpets of the period of independence.

**In the fourth chapter** - "Popularization and ways of development of carpet art in the education system of Azerbaijan" it is noted that the scientific study of carpet art in higher and secondary special educational institutions, as well as its propaganda in the museum business, serves as a basis for creating new types of carpet art on the basis of classical heritage carpet.

**The Conclusion** summarizes main results of the study.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**САИДА РЗА гызы САЛИМ-ЗАДЕ**

# РАЗВИТИЕ ИСКУССТВА КОВРА В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД НЕЗАВИСИМОСТИ И ЕГО ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ

**Специальность:** 6218.01 – «Декоративно-прикладное искусство»

## А В Т О Р Е Ф Е Р А Т

диссертации, представленной на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ – 2018**